# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRİN KURORT POTENSİALI

**Nizami Nəbiyev, Sevda Nəsrullayeva, Rəna Musayeva***

*TƏBİB-in Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu*

Azərbaycanın müalicəvi-mineral suları əsasən Kəlbəcər və Laçın zonalarında yerləşir. Keçən əsrin 90-cı illərinə qədər, Azərbaycan Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun əməkdaşları tərəfindən bu suların fiziki və kimyəvi xüsusiyyətləri öyrənilmiş və balneoloji cəhətdən dəyərləndirilmişdir. Laçın və Kəlbəcər rayonlarında olan 63 bulaqdan öz fiziki və kimyəvi xüsusiyyətlərinə görə İstisu (Kəlbəcər rayonu) və İlıqsu (Laçın rayonu) daha çox əhəmiyyət kəsb edir. Yuxarı İstisu, Aşağı İstisu, Bağırsaq yataqlarının çox böyük müalicəvi- balneoloji təsirə malik mineral suları Kəlbəcərə dünya şöhrəti qazandırmışdır. Bağırsaq bulaqlarının temperaturu 16-48°C arasında dəyişir. Bu bulaqların minerallaşma dərəcəsi 7q/l-ə qədərdir. Bağırsaq bulaqları karbonlu, hidrokarbonatlı, xloridli, natrium-sulfatlı sulara aiddir. Tutxun çayı boyunca yerləşən İstisu mineral suları 23 bulaqdan ibarətdir. Bulaqların temperaturu 22-58°C arasında dəyişir, minerallaşma dərəcəsi 8 q/l-ə qədər çatır. İstisu bulaqlarındaki sular Bağırsaq bulaqlarındaki sularla eyni tiplidir. Kəlbəcər rayonunda yerləşən Aşağı İstisu bulaqlarının temperaturu 16-37°C arasında dəyişir. Minerallaşma dərəcəsi 6 q/l-ə yaxındır. İstisu bulağındakı mineral sular öz xüsusiyyətlərinə görə müalicəvi içməli sular qrupuna aiddir. Sularda olan yüksək radioaktivlik, tərkibində böyük miqdarda karbon qazının, çoxlu sayda müxtəlif mikroelementlərin olması, termal xüsusiyyətləri və s. bu suların balneoloji effektini daha da artırır. Bu sular balneoloji xüsusiyyətlərinə görə sinir sistemi, mədə-bağırsaq, oynaq-hərəkət aparatı, qara ciyər və öd yolları, böyrək, maddələr mübadiləsinin pozulması xəstəliklərinin müalicəsində istifadə olunur. İstisu bulaqları Çexiyanın məşhur Karlovı Varı kurortunun analoqudur. Qeyd edək ki, Yer kürəsindəki müalicəvi suların hər növünə bu ərazidə rast gəlinir.

30 ilə yaxın işğal altında olan Qarabağ torpaqlarında tədqiqatların aparılması mümkün olmamışdır. Hazırda Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu işğaldan azad olunmuş ərazilərdə elmi tədqiqatların davam etdirilməsini planlaşdırır, zəngin unikal təbii müalicəvi sərvətlərin müasir səviyyədə bərpa olunması, regionda sanator-kurort mərkəzinin yaradılması üçün məqsədyönlü, elmi cəhətdən əsaslandırılmış layihələrin hazırlanması üzərində iş aparır.